# Muzeyə Giriş.

Söz yoq ki, Bu gün gəncliyə baqsan,
Bir sel kibi hər an,
Sağlam. Yeni məfkurələr izlər.
... Onlar qoşacaq, çarpışacaqlar,
Bir çoq uçurumlar aşacaqlar.
... Onlar mədəniyyətlə günəşlər yapacaqlar,
Keçmişlərə üstdən baqacaqlar.
Onlar güləcək, yüksələcəklər.
Bizdən daha xoş gün görəcəklər!
( "Azər" poemasından)

## Başlanğıc.

Böyük Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin ev muzeyi onun Bakı şəhərində daimi olaraq yaşadığı ünvanda – 1920-1937-ci illər arası ömür sürdüyü İstiqlaliyyət küçəsi (keçmiş Kommunist) 8 saylı binanın 3-cü qatında yerləşir.

Girişi İstiqlaliyyət küçəsi tərəfindən - Əlyazmalar İnstitutu ilə eyni qapıdan olan Cavidin ev muzeyi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən 3 muzeydən biridir.

Muzeyin yerləşdiyi bina tanınmış milyonçu Hacı Zeynalabdin Tağıyevin şəxsi təşəbbüsü və himayəsilə memar İ.V.Qoslavskinin layihəsi əsasında 1898-1901-ci illərdə tikilmiş və müsəlman qadın məktəbi üçün nəzərdə tutulmuşdur.

Məktəb 1918-ci ilədək fəaliyyət göstərmişdir. 1920-30-cu illərdə burada Darülmüəllimin (pedaqoji məktəb), 1930-cu ildən sonra Mərkəzi İcraiyyə Komitəsi, hazırda isə MEA Füzuli adına Əlyazmalar İnstitutu yerləşir.

Əlyazmalar İnstitutunun 2-ci mərtəbəsindən Cavid muzeyinin fərdi giriş qapısı var və Cavidin ev muzeyinin burada yerləşməsi haqqında məlumat verən lövhə orada vurulmuşdur: "Böyük şair və mütəfəkkir Hüseyn Cavid Vətənə qayıdışı və yaşadığı mənzildə ev muzeyinin açılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü, cəsarəti və ardıcıl səyləri ilə gerçəkləşmişdir".

Hüseyn Cavidin ev muzeyinin yaradılması haqqında 604 saylı ilk qərar Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Nazirlər Soveti tərəfindən 25 noyabr 1981-ci ildə qəbul edilmişdir. Respublika Mədəniyyət Nazirliyinin 16 aprel 1991-ci il 74 saylı qərarı ilə muzey üçün Azərbaycan Dövlət Əlyazmalar İnstitutunun yerləşdiyi binanın 1-ci mərtəbəsində 5 otaq ayrılmışdır. Nəhayət, Respublika Nazirlər Kabinetinin 10 iyul 1995-ci il 160 saylı qərarı ilə H.Cavidin ev muzeyi həmin binanın 3-cü mərtəbəsində, yerləşən və şairin 1920-ci ildən 4 iyul 1937-ci ilə qədər yaşadığı, əsərlərinin əksəriyyətini yaratdığı mənzilə köçürülmüşdür.

H.Cavidin ev muzeyinin açılışı 2002-ci il oktyabr ayının 24-də şairin 120-ci doğum günündə olmuşdur.

© AMEA Hüseyn Cavidin Ev Muzeyi- www.huseyncavid.com

Muzeyin girəcəyində heykəltaraş Ömər Eldarovun yaratdığı və əsli Hüseyn Cavid prospektində MEA-nın əsas binası ilə üzbəüz bağda ucalan tuncdan tökülmüş "Cavid abidəsi"nin gipsdən olan kiçik variantı qoyulmuşdur. (1993)

175 sm. hündürlüyü və 75 sm. eni olan abidə 60 sm. hündürlüyü möhkəm taxta təməl üzərində qoyulub və bürünc rənglidir.

Abidənin qoyulduğu hissə ilə üzbəüz divarda "Cavid planeti" adlı lövhə asılıb.

Lövhənin ətrafında verilmiş mətndən aydın olur ki, Ukrayna alimi Nikolay Çernıxın kəşf etdiyi 6262 saylı planetə Beynəlxalq astronomiya İttifaqı 20 iyun 1997-ci ildə böyük Azərbaycan şairi və dramaturqu H.Cavidin adını vermişdir. Stendin üzərində H.Cavidin "Peyğəmbər" əsərindən götürülmüş bir misra yazılmışdır:

"Bən fəqət hüsni-xuda şairiyim,
Yerə enməm də səma şairiyim..."

Həmin divara bitişik divarda "Mütəfəkkir şair Hüseyn Cavidin nəşinin Vətənə gətirilməsi və yaşadığı mənzildə ev muzeyinin açılması Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və ardıcıl səyləri ilə gerçəkləşmişdir" kəlamları yazılmış lövhə asılmışdır.

Abidənin qoyulduğu divarda H.Cavidin Naxçıvandakı məqbərəsinin maketi. (Müəllif İbrahim İbrahimov).

Məqbərənin yuxarısında "Hüseyn Cavidin Ev muzeyi" yazılan xalq sənətkarı Seyfəddin Məmmədvəliyev tərəfindən işlənmiş qoz ağacından oyma asılmışdır.

Həmin divara bitişik divarda H.Cavidin adına olan gəminin şəkli asılmışdır.

** ** **

## CAVİDİN ƏBƏDİYYƏTİ.

Muzeyin ekspozisiyası 4 otaqda yerləşmişdir.

Ekspozisiya üçün ayrılmış bu otaqlar şərti olaraq aşağıdakı kimi adlanır:

**Giriş otağı- "Cavidin əbədiyyəti".**

**1-ci otaq- "Cavidin ömrü".**

**2-ci otaq- "Cavidin faciəsi".**

**Soldakı zal- "Cavidin şöhrəti".**

Təqdim olunan mövzu – ekspozisiya planında Cavidin ev muzeyinin tam təsviri və aparıcı mətnlər verilsə də, muzey bələdçilərinin daha geniş biliyə və məlumata malik olması zəruridir. Bunun üçün onlara aşağıdakı qaynaqların öyrənilməsi tövsiyə edilir:

**1. Məmməd Cəfər Cəfərov. Hüseyn Cavid.**
**2. Qulam Məmmədli. Cavid – ömrü boyu.**
**3. Rafael Hüseynov. Vaxtdan uca.**
**4. Mehdi Məmmədov. Şirin arzular, acı fəryadlar.**
**5. Cavidi xatırlarkən. Məqalələr və xatirələr toplusu.**
**6. Gülbəniz Babaxanlı. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid.**
**7. Kamran Əliyev. Hüseyn Cavid: həyatı və yaradıcılığı.**
**8. Rafael Hüseynov. Əbədi Cavid.**

Ekspozisiyanın ilk otağında daxil olan kimi sağ divarda xalçaçı-rəssam Afaq Kərimovanın yaratdığı Cavid xalçası asılmışdır (1993).

Bu xalçanın yuxarı hissəsində Cavidin portreti işlənib. İkinci hissə saçaqlarla birincidən ayrılmış və bu bölümdə Cavid aləmi ilə bağlı müəyyən elementlər, şairin sevdiyi qızılgüllər, ayrılıq rəmzi bənövşə əks edilmişdir. Xalça üzərində Cavidin 1939-cu ildə Sibirdən göndərdiyi ilk məktubundan bir cümlə yazılıb: "Turandan muğayat olun".

**Aparıcı mətni:**

Cavid 1939-cu ildə Sibirdən yolladığı ilk məktubunda "Turandan muğayat olun" yazmışdı. Tale elə gətirdi ki, Cavidlərin hamısından, onların nigaran xatirələrindən muğayat olmaq yükünü bütün ömrü boyu zərif çiyinlərində evin sonbeşiyi Turan Cavid daşıyası oldu. O, Cavidin, qardaşı Ərtoğrolun əsərlərini, əzizləri ilə bağlı hər bir yadigarı göz bəbəyi kimi hifz edərək bu günə çatdırdı, onillərlə sürən arzulardan, ümidlərdən sonra yenidən burda – öz evlərində topladı və siz bu gün burada Cavidlər ömrünə doğruçu bir səyahətə çıxa bildiniz, bu ilk növbədə Turan Cavidin – ləyaqətli övladın, dəyanətli, dözümlü, mərd insanın xidmətidir...

Xalçanın ətrafında H.Cavidin müxtəlif illərdə müəllimlərinə, həmkarlarına və xanımına göndərdiyi məktublardan fraqmentlər nümayiş olunur:

Ekspozisiyanın ilk otağında bir-birindən sütun-divarlarla ayrılan 3 şəbəkəli bölümün hər birində heykəltaraşlıq nümunələri yerləşir:

1. Orta Hüseyn Cavidin məqbərəsindəki mərmər heykəlin natural ölçüdə gipsdən olan variantı (Müəllif Ö.Eldarov). Bu heykəlin üst hissəsində H.Cavidin "Azər" poemasından misralar yazılıb:

"Bir əlim iştə su, atəş bir əlim.
Çarpacaq qəlbim, əgər sussa dilim."

2. Sağda Hüseyn Cavidin qızı Turan Cavidin mərmərdən büstü. (Müəllif Ö.Eldarov). Büstün üst hissəsində "Şeyx Sənan" əsərindən misralar yazılıb:

"Bəni öldürsələr də, bən yaşarım,
Tərk edib xəlqi, xaliqə qoşarım."

Büstün sol tərəfindəki sütunda A.Kərimovanın "Alın yazısı" adlı əsəri təqdim olunur (2001- ci il. Texnika-qələmkar).

***Aparıcı mətn:***

Fəlsəfi məna daşıyan bu əsərdə fonda H.Cavidin obrazı canlandırılmışdır. Bu, şairin ümumbəşəri mahiyyət daşımasına bir işarədir. Mərkəzdə Mişkinaz xanım, Ərtoğrol və Turanın 1936-cı il yaşlarına uyğun obrazları verilmişdir. Ön planda isə Turan Cavidin müasir yaş dövründə olan təsviri əks olunub. Bu özü də simvolik məna kəsb edir. Çünki Cavid irsinin yaşaması və gələcək nəsillərə çatdırılmasında onun xidmətləri əvəzsizdir.

"Alın yazısı"nın altında bu misralar yazılıb:

"Cavidlərin "sonuncu moqikani" olan Turan Cavid bütün ömrünü Cavidlərin doğrudan da Cavid, yəni əbədi olduğunu sübut etməyə sərf etdi və bu işin öhdəsindən uğurla gəldi".

Həmin sütunun qarşısında vitrin qoyulmuşdur. Vitrində H.Cavidin əsərlərinin Sovet dönəmində çap olunmuş kitabları qoyulmuşdur. Həmin kitablarda Turan xanım düzəlişlər etmişdir.

3. Solda Ərtoğrol Cavidin mərmərdən büstü. (Müəllif Ö.Eldarov). Heykəlin üst hissəsində H.Cavidin "Qadın" şerindən misralar yazılıb:

"Kimsədən gözləmə yardım əsla
Yalnız kəndinə kəndin ağla"!

Büstün sol tərəfindəki sütunda H.Cavidin xatirəsini əbədiləşdirən Heydər Əliyevin portreti asılıb. Fonda H.Cavidin Naxçıvandakı məqbərəsi ucalır.

1937-ci ilin 4 iyun gecəsində sovet cəza orqanları tərəfindən bu evdən dustaq edilib aparılan, bir müddət sonra Sibirə sürgün edilən, ailəsi də bu mənzildən çıxarılan Cavid bir də Vətənə, evinə 45 il sonra qayıda bildi.

Bu qeyri-adi qayıdışın səbəbkarı və dünyadan 59 yaşında köçmüş şairin ölümündən 59 il sonra bu otaqlarda onun xatirə muzeyinin açılmasının səbəbkarı Azərbaycan dövlətinin rəhbəri, Cavidin mənəvi övladı Heydər Əliyev oldu.

Portretin altında "Peyğəmbər" pyesindən misralar yazılıb:

"Kəssə hər kim tökülən qan izini
Qurtaran dahi odur yer üzünü"

**Aparıcı mətn:**

XX yüzil Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından olan böyük şair, dramaturq, filosof Hüseyn Cavid Rasizadə 1920-ci ildən 1937-ci ilədək həyat yoldaşı Mişkinaz xanım, oğlu Ərtoğrol və qızı Turanla bu mənzildə yaşamışdır. 20-ci illərdə, əvvəlcə "Darülmüəllimin" adlandırılan pedaqoji texnikumun yerləşdiyi bu binada müəllimlik edən Cavidə 3-cü qatda – indi muzey olan bu mərtəbədə mənzil verilmişdi. Bu bina Cavidin həm iş yeri, həm evi idi. Və Cavid bütün ömrü boyu işinə - bəxtinə yazılmış şairlik peşəsinə evi və ailəsi qədər namusla, məhəbbətlə yanaşdı; Evinə, ailəsinə - qələmə, sözə, şerə bəslədiyi qədər sədaqət, nəvaziş, sayğı göstərdi.

Müdiriyyətin qapısının sağ tərəfindəki divarda Naxçıvandakı Cavid türbəsinin açılışını əks etdirən fotoşəkillər (Heydər Əliyev, Turan Cavid və başqaları) həmin tədbirin açılış lenti yer alır.

Yuxarıda gələcəyi görən Cavidin, həyatının bütün macəralarını irəlicədən duyaraq yaradıcılığında əks etdirmiş Cavidin sanki türbəsi önündə dayanmış öz böyük xeyirxahına yönəlmiş sözləri yazılıb:

**Tutduğun yol böyük... Sən el rəhbərisin.**
**Bütün səslərdən üstündür sənin səsin.**
**Bağır, hayqır, can ver ıssız bucaqlara,**
**Bilgi nuru yağdır sönmüş ocaqlara.**
**... Çalış bütün boşluqlar əzminlə dolsun,**
**Hər bataqlıq çiçəkli bir cənnət olsun.**
**("Azər" poeması)**

Müdiriyyətin qapısının sol divarında H.Cavidin Bakıdakı Ev Muzeyinin açılışını əks etdirən fotoşəkillər (Heydər Əliyev, Turan Cavid və başqaları) və həmin tədbirin açılış lenti yer alır.

Səkillərin yuxarısında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Hüseyn Cavid haqqında dediyi sözlər verilib:

"Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil etməkdən ibarət olubdur.

O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".

HEYDƏR<br>ƏLİYEV.

Heykəllərlə üzbəüz divarda səhnənin sol və sağ tərəfində azərbaycan və ingilis dillərində H.Cavidin tərcümeyi-halı yazılmış tablolar asılmışdır.

Heykəllərlə üzbəüz divar üzərində sanki səhnəni xatırladan yarımaçılı pərdələrlə dekor edilmiş lövhədə Cavidə Cavidlik vermiş pyeslərinin xalq sənətkarı Seyfəddin Məmmədvəliyev tərəfindən qoz ağacından qabartma və oyma üsulu ilə işlənmiş adları yazılıb.

Səhnə bu sözlərlə başlayır: "Dünya qoca bir səhnə deməк".

**ANA, MARAL, ŞEYX SƏNAN, ŞEYDA, UÇURUM, İBLİS, AZƏR, AFƏT, PEYĞƏMBƏR, TOPAL TEYMUR, KNYAZ, SƏYAVUŞ, XƏYYAM, İBLİSİN İNTİQAMI, TELLİ SAZ.**

Bu adların aşağısında divar boyu fotolar. Onillər ərzində Azərbaycan səhnəsinin ən müxtəlif aktyor nəsillərinin ifasında səhnələrimizdə görünmüş Cavid qəhrəmanlarını əks etdirən şəkillər.

Bunlar Azərbaycan teatrı tarixində qalan tamaşalar, rollar və aktyorlardır:

**ABBASMİRZƏ ŞƏRİFZADƏ, ÜLVİ RƏCƏB, MƏRZİYƏ DAVUDOVA, KAZIM ZİYA, RZA TƏHMASİB, SİDQİ RUHULLA, SONA HACIYEVA, AĞASADIQ GƏRAYBƏYLİ, MÖHSÜN SƏNANİ, ƏLƏSGƏR ƏLƏKBƏROV, MEHDİ MƏMMƏDOV, ŞƏFİQƏ MƏMMƏDOVA, ƏLİ ZEYNALOV, HƏSƏN TURABOV, SƏMƏNDƏR RZAYEV, HAMLET XANIZADƏ...**

Elə bu lövhədə 20-30-cu illərdə Bakı teatrlarında oynanmış Cavid tamaşalarına çağıran afişaların orijinalları asılıb. Lövhənin yuxarı hissəsində "Azər" poemasından götürülmüş misralar verilib:

"Dünya qoca bir səhnə demək"

**Aparıcı mətn:**

Təxəllüs seçdiyi "Cavid" sözünün mənası Böyük şairin yaşarı, əbədi deməkdir. Bu əbədiyyəti və ölməzliyi Cavidə bəxş edən ən əvvəl onun səhnə əsərləridir. Azərbaycanda poetik teatrın təməlini qoyan, mənzum faciələrin ilk təkrarsız nümunələrini doğuran, dramaturgiya tariximizdə faciə ustası kimi daimi birincilik haqqını qazanmış Cavidin öz həyatı nə qədər acılı, faciəli olsa da o,

© AMEA Hüseyn Cavidin Ev Muzeyi- www.huseyncavid.com

xoşbəxt bir insan idi. Müxtəlif təzyiqlərə, təqiblərə məruz qalsa da, əsrin ilk onilliyindən başlayaraq onun "İblis"i, "Şeyx Sənan"ı, "Seyavuş"u, "Knyaz"ı... həmişə səhnələrdəydi. Abbasmirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyə Davudova, Sidqi Ruhulla kimi parlaq aktyorlar canlandırırdılar Cavid surətlərini. Gənclik Cavid pyeslərini əzbər söyləyirdi. Həm yeni aktyor nəsilləri, həm də teatral auditoriya Cavid əsərlərindən tərbiyə alaraq yetişib inkişaf edirdilər.

Bir neçə nəslin ruhuna, düşüncəsinə və hisslərinə hakim olduğunu, bələdçi, yol göstərən olduğunu Cavid öz sağlığındaca gördü.

Bir yaradıcı üçün bundan böyük nə səadət ola bilər ki!

Sağ hissədə isə H.Cavidin Bakıdakı ev muzeyinin 24 oktyabr 2002- ci il tarixli açılışı kəsilmiş qırmızı lent və fotoşəkillər yerləşdirilib. Elə bu guşədə də Prezident H.Əliyevin açılış zamanı dediyi sözlər təqdim olunub:

... Hüseyn Cavidin ev-muzeyi tarixi əhəmiyyət kəsb edən qiymətli sənədlərlə, eksponatlarla zəngindir. Bunlar bizi böyük Cavid dünyasına yenidən qaytarır.

Ümidvaram ki, bu Cavid ocağı xalqımızın tarixinin, ədəbi irsinin, milli mənəvi dəyərlərinin gənc nəsillərə aşılanmasında misilsiz rol oynayacaqdır.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**
**24 oktyabr 2002- ci il.**

Ekspozisiyanın birinci otağında sıralanmış vitrinlərdə Hüseyn Cavidin əsrin ilk onilliklərində ərəb və latın qrafikası ilə nəşr edilmiş "Bahar şəbnəmləri", "Keçmiş günlər", "İblis", "Şeyx Sənan", "Uçurum", "Topal Teymur", "Peyğəmbər" və sair əsərləri ilə yanaşı bəraətdən sonra işıq üzü görmüş müxtəlif dillərdə olan kitabları, Cavidin həyatı və yaradıcılığı ilə əlaqədar həm Azərbaycanlı, həmdə əcnəbi müəlliflərin əsərləri düzülüb.

Cavidin ev muzeyinə bu dəhlizdən başlayan səyahətin ilk anından görkəmli bəstəkar Cahangir Cahangirovun şairin "Xəyyam" pyesinə yazdığı musiqi astaca səslənir və bələdçinin sözlərini müşayiət edir.

Muzeyə səyahət ekspozisiyanın birinci otağının sağındakı xatirə otağına keçidlə davam edir.

** * **

## CAVİDİN ÖMRÜ

Əsasən şairin bioqrafiyasını və sənət taleyini əks etdirən bu otaq sırf xatirə mahiyyətlidir. Ona görə də tərtibat nöqteyi-nəzərindən tam müasir görümlü dəhlizdən fərqli olaraq buranın tərtibatında 20-30-cu illərin ovqatı bütün qabarıqlığı ilə sezilməkdədir.

Aparıcı mətn: 1920-Cİ İLDƏ O ZAMANLAR "DARÜLMÜƏLLİMİN" ADLANAN BAKI MÜƏLLİMLƏR SEMİNARİYASI İŞƏ BAŞLAYANDA MÜƏLLİMLƏRLƏ TƏLƏBƏLƏR BİR AİLƏ KİMİ YAXIN OLSUNLAR DEYƏ ONLARIN NEÇƏSİNƏ BU BİNADA VƏ HƏYƏTDƏ MƏNZİLLƏR VERDİLƏR. PƏNAH QASIMOV, HÜSEYN CAVİD, CAMO

CƏBRAYILBƏYLİ, ZAHİD ŞIXMƏMMƏDOV, ŞƏFİQƏ ƏFƏNDİZADƏ... QONŞU OLDULAR.

YALNIZ CAVİDLƏR AİLƏSİ, HƏTTA BU BİNA MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ KİMİ MÜHÜM DÖVLƏT İDARƏSİNƏ ÇEVRİLƏNDƏN SONRA DA 1937-Cİ İLƏDƏK BURADA YAŞADI.

... ƏSƏRLƏRİNİ YAZARKƏN HEY O BAŞ – BU BAŞ VAR – GƏL EDƏN CAVİDİN DÖŞƏMƏDƏ BİR YOL KİMİ AYDIN SEÇİLƏN İZİ QALIBMIŞ.

HƏMİN İZ TARİXƏ KÖÇDÜ.

* * *

Bu otaqda verilən fotolar maksimal dərəcədə orijinal fotolardır və burada Cavidə, onun ailə üzvlərinə məxsus əşyalar, ev avadanlığı yer almaqdadır.

Qapıdan girərkən sol əldəki divarda rəssam Oqtay Sadıqzadənin yağlı boya ilə çəkdiyi portret asılıb. Bu rəsmdəki Mişkinaz xanım gəncdir (Əsər Mişkinaz Cavidin 1922-1925-ci illərdəki fotoları və Cavidlə dostluq etmiş, bu evə daimi gedib gələnlərdən olmuş Seyid Hüseynin oğlu Oqtay Sadıqzadənin şəxsi müşahidələri əsasında 1992-ci ildə çəkilmişdir).

Portretin altında elə həmin divardaca Mişkinaz Cavidin gündəliklərindən onun öz xətti ilə olan (böyüdülmüş) parça:

**Biz 1918-ci ilin avqust ayında evləndik. Çox kiçik, xudmani toy məclisi oldu. Toydan bir-iki gün sonra Cavid mənə dedi ki, axı mən hərdənbir cızmaqara edirəm, gərək mənim ilk oxucularımdan biri də sən olasan. Mən isə onun oxucusu ola bilməzdim. Çünki savadım yox idi. Cavid mənə dərs deməyə başladı...**

Portretin altında elə həmin divardaca H.Cavidin Mişkinaz xanıma yazdığı məktubdan bir parça:

MİŞKİNAZ!

... QƏRİBSƏMƏYƏ BAŞLADIM, TANIŞ DA ÇOX AZ... PƏNAH BƏY DƏ DÜNƏN YOX, SIRAĞA GÜN GƏLDİ. KİSLOVODSKİN YAĞMURLARI DAD – BİDAD ELƏYİR. DIŞARI ÇIXMAQ MÜMKÜN DEYİL.

... GƏLƏN DƏFƏ ƏRTOĞROLA ŞƏKİLLİ OTKRITKA YAZACAĞAM, BU DƏFƏ BAĞIŞLASIN.COCUQLARI ÖPÜRƏM.

ƏRTOĞROL HƏLİMƏNİN DƏ DƏRSLƏRİNƏ BAXSIN...

BAQİ EHTİRAM, SƏNİ ÖPÜRƏM, CAVİD

30 İYUN, 1927, KİSLOVODSKİ.

**Mişkinaz Cavid**

**Aparıcı mətn:**

Mişkinaz Cavid bu evin sahibəsi idi. 1920-ci ildən burada yaşadılar. Əslən elə Cavidin ata-babaları kimi Naxçıvanın Remeşin kəndindən olan bu sadə el qızı böyük şairin əsl könül hayanı idi. O, Cavidə yalnız sədaqətli, dəyanətli bir həyat yoldaşı deyil, həm də dost, müsahib, sirdaş ola bildi.

Cavid ona əlifba öyrətdi, savad verdi. Mişkinaz, Hüseyn Cavidin yüzlərlə tələbəsindən biri idi. Caviddən aldığı o savadla Mişkinaz çox illər sonra şairin

unudulmuş əsərlərini yazıya köçürtdü. Onun haqqında ən doğruçu xatirələri qələmə aldı.

Bu otağın sol divarında Cavidlərin 1920-36-cı illər arasında çəkilmiş fotoları nümayiş olunur.

**Aparıcı mətn:**

Cavidin "Bahar Şəbnəmləri", "Maral", "Şeyx Sənan", "Ana", "Keçmiş günlər", "Şeyda" əsərləri nəşr edilir. Əsrin ikinci onilliyi artıq Cavidin Azərbaycan ədəbi mühitində özünü asta-asta tam təsdiq etdiyi mərhələdir.

1918-ci ildə Cavid ailə həyatı qurur.

Özü oktyabrın 24-də anadan olmuş şairin oğlu Ərtoğrol 1919-cu, qızı Turan 1923-cü ilin oktyabrında dünyaya gəlirlər.

Cavid yaradıcılığı Azərbaycan teatrının səhnəsində getdikcə möhkəm yer tutmağa, şəriksiz birincilik qazanmağa başlayır.

**Aparıcı mətn:**

Hüseyn Molla Abdulla Oğlu Rasizadə 1882-ci il oktyabrın 24-də Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açdı. İlk təhsilini mollaxanada alan, 5 il ərzində ilahiyyatı, fars, ərəb dillərini öyrənən Hüseyn, 14 yaşında ikən XIX yüzilin görkəmli maarifçilərindən olan Məhəmmədtağı Sidqinin təşkil etdiyi "Məktəbi-tərbiyə"yə daxil olur. 1898-ci ildə isə burada təhsilini başa vurduqdan sonra Təbrizə gedərək oradakı "Talibiyyə" mədrəsəsində oxuyur.

Yaradıcılığa erkən başlayan Hüseyn ilk şerlərini "Gülçin", "Arif", "Salik" təxəllüsü ilə qələmə alır.

Təbrizdə ikən o dövrün "Nasiri", "Sürəyya", "Şərqi-Rus" qəzetlərini ardıcıl mütaliə edir. Farsca şerlər yazır.

Rus dilini yaxşı öyrənmək üçün çalışır.

Əsrin əvvəllərində artıq qəzetlərə məktublar, məqalələr göndərməyə başlayır.

Kitab dolabında nümayiş olunan kitablar Ərtoğrol Cavidə məxsusdur. Birinci rəfdə görünən fotoşəkil H.Cavidin böyük qardaşı Şeyx Məhəmmədin oğlu Tahir Rasizadənindir.

**Aparıcı mətn:**

1937-ci il iyunun 4-də H.Cavidin həbsindən sonra "xalq düşməninin" ailəsi adı altında damğalanmış bu ailə ilə qohumlar, dostlar yaxınlıq etməyə ehtiyat edirdilər. Tahir Rasizadə onlarla daima əlaqə saxlayıb, Ə.Cavidə mənəvi dayaq olmuşdur. T.Rasizadə ixtisasca aqronom olsa da, yaradıcılıqla da məşğul olmuş, şeirlər, pyeslər... yazmışdır.

T.Rasizadə 1942-ci ildə Böyük Vətən Müharibəsində həlak olub. Divardakı növbəti fotolar 1922-24-cü illər arasında çəkilmişdir. Mərkəzdəki büst Mişkinaz xanımındır (müəllif Ö.Eldarov 1992). Büstün yuxarı hissəsində "Mənim tanrım" şeirindən misralar yazılıb:

"Bənim tanrım gözəllikdir sevgidir".

**Aparıcı mətni:**

Türkyədə təhsilini başa vurub vətənə qayıtdıqdan sonra Cavid bir müddət daimi iş yeri axtarmaqla məşğul olur və bu arada dövrün əsas mətbuat

orqanlarından olan "Həqiqət"də, "Tazə xəbər"də müxtəlif məqalələri, "İşıq", "İqbal", "Məktəb"də şerləri işıq üzü görür. Cavid bir müddət Gəncədə Məhəmməd ağa Pişnamazzadənin mədrəsəsində dərs deyir. Maraqlı fotolardan biri H.Cavidin 1912-ci ildə Gəncədə Pişnamazzadənin məktəbində dərs deyərkən çəkilmiş və o məktəbin ilk buraxılışının vinetkasına daxil edilmiş şəklidir. Elə həmin divardan asılmış daha bir şəkil diqqəti çəkir. H.Cavidin 20-ci illərdə H.Cavidin Teatr texnikumunun müəllim və tələbələri ilə çəkdirdiyi orijinal foto.

Həmin divarda yuxarıda Cavidin fotoşəkilləri yer alıb.

H.Cavidin fotoşəkli. Naxçıvan 1912.

H.Cavid ailəsi ilə. Bakı 1922.

H.Cavid ailəsi ilə. Bakı 1924.

H.Cavid. Bakı 1924.

H.Cavid. Bakı 1924.

Həmin divarda fotoların sağ tərəfində Mişkinaz Cavidin obrazı əks olunmuş süjetli əl xalçası asılmışdır. Xalçanın altında ailəyə məxsus sandıq və onun üzərində yenə də ailəyə məxsus əllə toxunmuş xalça var.

Vaxtilə elə burada olmuş qapısı şüşəli şkaf.

Bu şkafın içərisində Cavidə və Mişkinaz xanıma məxsus olmuş bir sıra əşyalar düzülmüşdür.

Diqqəti çəkən bu eksponatlar arasında Mişkinaz xanımın iki üzüyü, əl işləri-toxumalar, Hüseyn Cavidə məxsus əşyalar – cib dəftərləri, eynək qabı və s. vardır.

ŞKAFIN YANINDAKI BU TİKİŞ MAŞINI AĞIR İLLƏRDƏ ONLARIN DADINA ÇATDI. MİŞKİNAZ XANIM 1938-Cİ İLİN APRELİNDƏ "KLARA SETKİN" ADINA SƏNAYE KOOPERATİV ŞİRKƏTİNƏ İŞƏ DÜZƏLMİŞDİ VƏ EHTİYAC VADAR ETDİ Kİ, FASİLƏLƏRLƏ TA 1948-Cİ İLƏ QƏDƏR TİKİŞ ARTELİNDƏ ÇALIŞSIN. ARTEL İŞƏMUZD QAYDADA QƏBUL ETDİYİ QADINLARA BACARACAQLARI QƏDƏR SİFARİŞ VERİRDİ. ƏN ADİ İŞ ÜÇÜN QAPILAR "XALQ DÜŞMƏNLƏRİ"NİN ÜZÜNƏ BAĞLI OLDUĞUNDAN BÜTÜN ƏZİYYƏTLƏRİNƏ BAXMAYARAQ, ARTEL GÖYDƏNDÜŞMƏ ÇÖRƏK AĞACI İDİ.

Bu guşədə həmçinin M.Cavidin rəfiqəsi – İdris Axundzadənin həyat yoldaşı Fəramuş xanımla çəkdirdiyi fotoşəkil asılmışdır.

"Cavidin faciəsi" otağının giriş qapısının sağ tərəfində H.Cavidin portreti asılıb.

***Aparıcı mətn:***

BU PORTRETİNİ CAVİD ÖZÜ DƏ GÖRMÜŞDÜ. AZƏRBAYCAN DEMOKRATİK CÜMHURİYYƏTİ DÖVRÜNDƏ VƏ SOVET HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ BAKI ŞƏHƏRİNİN BAŞ MEMARI OLMUŞ ZİVƏRBƏY ƏHMƏDBƏYOV (1873-1925) ƏSƏRİNİ ŞAİRƏ 1922- Cİ İLDƏ HƏDİYYƏ EDİB. YENİ QURULUŞUN AZƏRBAYCANA ZİDD SİYASƏTLƏRİNƏ DÖZMƏYƏRƏK ÖZ HƏYATINI YARIMÇIQ QIRMIŞ İSTEDADLI RƏSSAM VƏ MEMAR Z.ƏHMƏDBƏYOV CAVİDİN İKİ PORTRETİNİ İŞLƏMİŞDİ. BUNLAR ŞAİRİ BİLAVASİTƏ MÜŞAHİDƏ NƏTİCƏSİNDƏ YARANMIŞ MÜSTƏSNA RƏSMLƏRDİR.

Etajerin rəfində ailəyə məxsus "pioner" markalı radio nümayiş etdirilir.

İki pəncərə arasındakı sahədə mərkəzdə Cavidin böyük qardaşı Şeyx Məhəmmədin və ilk müəllimi olan M.T.Sidqinin fotoşəkilləri asılıb.

***Aparıcı mətn:***

Özü də müəllim olan Cavid dərs aldığı insanların hamısını daim ən dərin ehtiramla xatırlasa da, iki ad onun üçün xüsusən əziz idi. İlk müəllimləri-böyük qardaşı Şeyx Məhəmməd və "Məktəbi-tərbiyyə"dəki ustadı Məhəmməd Tağı Sidqi.

Fotoşəkillərin ətrafında Cavidə məxsus sənədlər nümayiş etdirilir:

1. 1912-ci ildə Zaqafqaziya Ruhani İdarəsi tərəfindən verilmiş ruhani rütbəsi haqqında attestat.

2. 1911-ci ildə yaşadığı yer haqqında vəsiqə.

3. 1926-cı ildə Berlinə və Parisə ezamiyyət vərəqəsi.

4. 1926-cı ildə Azərbaycanda və SSRİ-nin ərazisində yaşamaq hüququ haqqında şəhadətnamə.

5. İstanbul Universiteti ədəbiyyat fakültəsinin tələbəsi H.Cavidin şəxsiyyət vəsiqəsi.

6. Cavid gecəsinin döş nişanı. Bakı 1922. 27 mart 1922-ci ildə Bakıdakı 2-ci dərəcəli 3,4 və 7-ci Azərbaycan məktəblərinin keçirdiyi H.Cavid gecəsinin məramnaməsi.

7. Böyük üstad!

... üç gün bundan əvvəl buraya gələn bir seyid həkim ara-sıra məktəbə yolu düşür, qardaşımla dostdur. Ona hər on gündən bir "Nasiri", "İzzət", "İttila" qəzetləri ayrıca onlara verilir, oda qərib məktəbdə oxuyur. Mən isə ondan alıb oxuyuram indi artıq abunə olmaq lazım deyildir...

Kiçiyiniz Hüseyn Rasizadə
Naxçıvan 1897.

Otağın ortasında bir zamanlar bu otaqda istifadə olunmuş yemək masası nümayiş etdirilir.

***Aparıcı mətn:***

BU OTAQDAKI MASANIN ARXASINDA MEHRİBAN AİLƏ HƏR GÜN SƏHƏR YEMƏYİNƏ, NAHARA, ŞAMA ƏYLƏŞƏRDİ. SÜFRƏNİN ALTINDA QALDIĞINDAN MASANIN GÖZLƏRİ İSTİFADƏ EDİLMİRDİ VƏ CAVİD MÜXTƏLİF QARALAMALARINI KİP-KİP O SİYİRTMƏLƏRƏ DOLDURURMUŞ. 1937-NİN 4 İYUN GECƏSİNDƏ AXTARIŞ APARANLARIN SÜFRƏNİN ALTINDA SİYİRTMƏ OLA BİLƏCƏYİ AĞILLARINA GƏLMƏYİB VƏ XOŞBƏXT TƏSADÜF NƏTİCƏSİNDƏ CAVİD ƏLYAZMALARININ BİR QİSMİ BELƏCƏ XİLAS OLUB.

** * **

## CAVİDİN FACİƏSİ

Ev muzeyinin bu qanadındakı son kiçik otaq Hüseyn Cavidin və onun ailəsinin sovet rejimi tərəfindən məruz qaldıqları müsibətlərə həsr edilib.

Açıq qapıdan qarşı divardakı rəsm əsəri görünür. Rəssam Oqtay Sadıqzadənin çəkdiyi “Qara yazı” adlı bu əsərdə 1937-ci il repressiya qurbanlarından bir neçəsi təsvir edilib. Cavid və onunla dostluq etmiş, yaxın olmuş daha yeddi Azərbaycan ziyalısı.

**Əhməd cavad (1112); Seyid Hüseyn (1286); İdris Axundzadə (2361); Pənah Qasımov; Mikayıl Müşfiq (1109); Abbasmirzə Şərifzadə; Y.V.Çəmənzəminli.**

Onların KQB (DTK) arxivlərində saxlanan sinəsi nömrəli şəkilləri, dəhşət dolu gözləri. Ortada Cavid, dördbir yanında məslək, əqidə dostları olan bu insanlar tikanlı məftillərin o tayındadırlar.

Tablonun alt hissəsində H.Cavidin “Şeyx Sənan” əsərindən misralar yazılıb:

“İşgəncədən qurtuldular,
Qeyb olduar, qeyb oldular.
Yüksəldilər, yüksəldilər,
Cənnətdə rahət buldular.”

Kitab dolabı. Buraya Cavidə məxsus, səhifələrində Cavidin qeydləri olan əsərlər yığılıb:

Şəmsəddin Sami bəyin “Qamusi – Türkü”sü.
Tofiq Fikrətin “Dübabı-şikəstə”si.
Əbdülhaq Hamid “Məqbər”, “Olu”.
Lev Tolstoyun “Anna Karenina”sı.
Aleksandr Dümanın “Kameliyalı madam”ı.
M.Rufun “Yunan qədim tarixi ədəbiyyatı”.

***Aparıcı mətn:***

OKTYABR AYI ONLARDAN ÖTRÜ XÜSUSİLƏ ƏZİZ İDİ. ŞAİR ÖZÜ 1882-Cİ İLİN 24 OKTYABRINDA DÜNYAYA GƏLDİ. ƏRTOĞROL 1919-CU İLİN 22 OKTYABRINDA, TURAN 1923-CÜ İLİN 2 OKTYABRINDA ANADAN OLDU. CAVİD UŞAQLARIN TƏVƏLLÜD TARİXİNİ ŞƏMSƏDDİN SAMİ BƏYİN, İLLƏR AYRILIĞINDAN SONRA TƏZƏDƏN BU OTAĞA QAYITMIŞ “QAMUSİ-TÜRKİ”SİNDƏ QEYD EDİB.

Sol divarda Cavidin cinayət işindən götürülmüş barmaq izləri olan vərəqin çərçivəyə salınmış surəti nümayiş etdirilir. Əl izinin altında “Xəyyam” əsərindən misralar yazılıb:

“Hey fələk keçdi zaman dalğa kibi,
Öylə bir dalğa ki, qorxunc əsəbi.”

H.Cavidin 1937-ci ildə həbsindən sonra fasdan və profildən çəkilmiş fotosu. Bu hissədə H.Cavidin “Azər” poemasından və “Şeyx Sənan” əsərindən misralar yazılıb:

“Bəni yalnız yaşatdı bir röya.
Öylə röya ki, dadlı xülya.
Dərdi – həsrətlə daima yanaraq,
Yaşadım bir xəyalə aldanaraq.”

Qarlı Sibir meşəsindəki 59 nömrəli qəbrin fotosu.

© AMEA Hüseyn Cavidin Ev Muzeyi- www.huseyncavid.com

1982-ci ilin oktyabrında çəkilmiş foto. 1941-ci ildə vəfat etmiş Cavid 41 illik ayrılıqdan sonra yenə öz mənzilindədir. Onun tabutu fəxri qarovulda dayanan Heydər Əliyevin fotosu.

Şəkillərin altında H.Cavidin şəxsi əşyalarının qorunduğu vitrin qoyulmuşdur. Vitrində Cavidə məxsus 2 pensne, H.Cavidin cib saatı və Sibirdəki məzarından götürülmüş bir ovuc torpaq nümayiş etdirilir.

***Aparıcı mətn:***

1941-ci il dekabr ayının 5-də İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndindəki əlillər xəstəxanasında dahi Cavid keçindi. Ölümünün səbəbini belə göstərdilər: ürək iflici və ayaqlarının donmasından yaranan sepsis. Şairlə birlikdə son pyesləri "Atilla", "Çingiz xan", "Telli saz", "Şəhla" və neçə şeri də gedər-gəlməzə getdi.

Cavid o buz səhrasındakı nömrəylə işarə edilən minlərlə qəbirdən birinə gömüldü.

İllər keçəcək, 1956-cı ildə Cavid də bəraət alacaq, onun üzərindən "xalq düşməni" damğası götürüləcək, kitabları yenidən nəşr ediləcək, əsərləri təzədən səhnələrə çıxacaq.

Amma Cavidin əsl bəraəti 1981-ci ildən başlayacaq.

Onun 100 illiyinin qeyd edilməsi haqqında qərar Cavid taleyinin ən əlamətdar hadisəsi olacaq. Bu qərar möcüzə sayılası bir tədbiri də nəzərdə tuturdu: Cavidin Sibirdəki məzarını tapıb cənazəsini Vətənə gətirməli!

Bu qərarın müəllifi, sovet dövləti içərisində yüksək nüfuzu və gücü hesabına onun icrasının yeganə səbəbkarı Azərbaycan dövlətinin başçısı Heydər Əliyev idi.

İllər ötəcək. Hakimiyyət və siyasət meydanında keşməkeşlərdən adlayıb 1990-cı illərdə artıq müstəqil Azərbaycana yenidən rəhbərlik etməyə başlayan prezident Heydər Əliyev Cavidə qaytarılmalı olan, amma 1982-ci ildən sonrakı 14 il ərzində kimsənin qaytarmadığı bir vətəndaş borcunu da yerinə yetirəcək. Cavidin bu evdən dustaq edilib aparılmasından 59 il sonra Naxçıvanda – şairin ata-baba yurdunda, böyük ustadın Sibirdən Azərbaycana qaytarıldıqdan sonra dəfn edildiyi məzarın üzərində əzəmətli türbəsini ucaltdıracaq. Bu türbədə Cavidin onillərlə həsrətini çəkdiyi həyat yoldaşı Mişkinaz xanım, oğlu Ərtoğrolla yanaşı uyumalarını, haqq dünyasında qovuşmalarını gerçəkləşdirəcək.

H.Cavidin yazı masası. Üzərində yarımçıq əlyazmaları.

Mürəkkəbqabı. Qələmi. Cavidin bu otaqdan, bu evdən ayrıldığı son günün son işarələri.

***Aparıcı mətn:***

1937- ci il iyun ayının 3-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının XIII qurultayı keçirildi. Mərkəzi Komitə katibi Mircəfər Bağırov çıxış edərək "xalq düşməni" adlandırdığı bir çox Azərbaycan ziyalısını, o sıradan Cavidi kəskin tənqid etdi. Və çox ləngitmədən elə həmin günün gecəsi, iyunun 4-də, saat dörd radələrində NKVD-nin qara maşını Cavidin evinin qarşısında dayandı. Onu yazı masasından, evindən, şerlərindən, ədəbiyyatından və həyatdan ayırdılar.

Faciələr müəllifi Cavidin və ailəsinin onillərcə davam edəcək zillətləri başlandı. Onu həbsxanaya atdılar. İki il sonra Sibirə sürgün etdilər. Həbsindən az sonra ailəsini bu evdən çıxardılar.

Cavidin adı, əsərləri yasaq oldu. Adı hər yerdən silindi.

H.Cavidin büstünün yanında Cavidin evində axtarış aparılması haqqında protokol, Cavidin Sibirdən göndərdiyi məktublar – onun axırıncı yadigarları, 59 yaşında ölümü haqqında şəhadətnamə nümayiş etdirilir. H.Cavidin büstünün aşağı hissəsində "Xəyyam" əsərindən misralar yazılıb:

"Onu duymaz, duyamaz hər şaşqın
Bir dəniz şişəyə sığmışmı, saqın!
Gün dəyişdikcə o həp gənc olacaq,
Şən könüllərdə pərəstiş bulacaq."

"Qara yazı" tablosunun solunda H.Cavidin həbsdən ailəsinə yazdığı məktublardan parçalar, Cavidin evinin axtarış sənədi və ölüm kağızının toplandığı kollajı əks etdirən qara lövhə asılıb.

"Qara yazı" tablosunun sağında 1937-ci ildə Cavidə iftiralarla dolu yazılardan imzalı – imzasız kəsiklərin toplandığı kollajı əks etdirən lövhə təqdim olunur.

***Aparıcı mətn:***

Cavid ömrünün çətinliklər, sıxıntılardan sonra xoşbəxt parçasını yaşayan şöhrətli sənətkar idi. Sədaqətli ömür yoldaşı, ağıllı-kamallı, istedadlı balaları vardı.

Ərtoğrol pedaqoji institutun ədəbiyyat fakültəsində oxuyurdu.

Artıq şeirlər yazır, tərcümələr edirdi, rəssamlığı vardı – bəyənimli rəsmlər çəkirdi.

1923-1926-cı illərə qədər – "Peyğəmbər" və "Topal Teymur" ortaya çıxanacan ədəbi tənqid Cavid barəsində yalnız təriflər yazır, onun hər əsərini təqdir edir.

Lakin 1920-ci illərin ikinci yarısından ona qarşı tənqidin ənənəvi olaraq qərəzli, sərt, bolşevik ruhlu hücumları güclənir.

Məktəb dərsliklərində onun haqqında indiyədək sırf müsbət mövqedən yazılan oçerklərin məzmunu dəyişir, şairin irsi təftişçi çekist nöqteyi-nəzərdən təhlil edilməyə başlanır.

Bu kiçik otağın giriş hissəsinin sağ divarında rəssam Vaqif Ucatayın "Zordan üstün" (1982) əsəri nümayiş olunur.

***Aparıcı mətn:***

Bu əsər fəlsəfi məna daşıyır. Kosmoloji fəzada təqdim olunmuş Cavidin təsviri onun ümumbəşəri mahiyyət daşımasına bir işarədir. Ön planda o dövrün gəncliyinin simvolu olan Ərtoğrol və Tahir Rasizadələr əks olunmuşdur. Totalitar rejimin simvolunu təşkil edən hörümçək toruna bu gənclər müqavimət göstərərək irəli addımlayırlar.

Bu guşədə Ərtoğrolun çəkdiyi A.M.Şərifzadənin İblis obrazında təsviri və Ərtoğrolun ailəsinə, müəllimləri Üzeyir bəyə, Bülbülə göndərdiyi məktublardan parçalar nümayiş olunur. Həmçinin burada "İblis" pyesindən misralar yazılmışdır:

"İblis nədir? Cümlə xəyanətlərə bais
Ya hər kəsə xain olan insan nədir? İblis!"

© AMEA Hüseyn Cavidin Ev Muzeyi- www.huseyncavid.com

***Aparıcı mətn:***

Ərtoğrol Cavidi repressiyaların zərbə dalğası apardı. Konservatoriyanın tələbəsi olmasına baxmayaraq, onu əsgərliyə çağırdılar. "Xalq düşməni"nin oğlunu Gürcüstanda çox ağır tunel tikintisi işlərinə göndərdilər. Vərəmə tutuldu... Müəllimləri Üzeyir bəyə, Bülbülə, anasıyla bacısına insafsızca tez qırılan 24 baharlıq həyatının son aylarında yolladığı bu məktublarında gerçəkləşməyəcək ümidlər çırpınır.

Bir çiçək ki, yeni
Açmaya
Başlar,
Görənlər-
Bir yarpaq
Həmən qoparar.

Bu misraları Ərtoğrol yazıb. Bu misralarında öz qisməti var. Ömrün çətin, məşəqqətli illərində Tahir ona sona qədər sadiq qaldı və cəmi 35 il də o "yaşa"dı.

Vaxtın acı qasırğaları olmasaydı, bu iki parlaq gənc nə qədər zirvələr fəth edəcəkdi.

TALE ÖZÜMƏM, BƏXT MƏNİM ÖZ HÜNƏRİMDİR,
ZİRA Kİ, - BU DÜNYADA NƏ BƏXT VAR, NƏ DƏ TALE.

BU MİSRALAR TAHİR RASİZADƏNİNDİR. UŞAQLIQ DOSTLARI İDİLƏR. LAKİN DAHA ƏVVƏL MƏSLƏK, ƏQİDƏ DOSTU İDİLƏR. ƏRTOĞROL TAHİRİN ŞEİRLƏRİNƏ MAHNILAR DA BƏSTƏLƏMİŞDİ. 35 YAŞLI TAHİRİN SON MƏKTUBU 1942-Cİ İLDƏ KERÇ CƏBHƏSİNDƏN GƏLDİ.

** * **

## CAVİDİN ŞÖHRƏTİ

Ev muzeyindəki ən böyük otaq ekspozisiya olaraq Hüseyn Cavidin və onun bəstəkar, şair, rəssam oğlu Ərtoğrolun ədəbiyyat və sənətdə qazandıqları saygı və zəfərləri nümayiş etdirməyi nəzərdə tutur. Həmçinin bu otaqda H.Cavidlə əlaqədar görüşlərin, elmi toplantıların, Cavid qiraətlərinin və s. tədbirlərin keçirilməsi mümkündür. Girəcəkdə sol tərəfdə böyük ekranlı televizor qoyulmuşdur. H.Cavidin ev muzeyinin elmi fondundan əlavə öz videotekası və fonotekası vardır. Cavid haqqında, onun həyat və yaradıcılığı haqqında çəkilmiş bütün sənədli, bədii filmlər, süjetlər, Cavid əsərlərinin ayrı-ayrı tamaşalarının lent yazıları müvafiq münasibətlərdə bu otaqda tamaşaçılara göstərilir.

Tamaşaçılar bu otağa daxil olarkən səsləndirmə mərkəzindən Ərtoğrol Cavidin Tahir Rasizadənin sözlərinə bəstələdiyi və Rauf Adıgözəlovun ifasında lentə alınmış "Səninlə olaydım" mahnısı eşidilir.

Girəcəkdə sağ tərəfdə qədim piano qoyulub. Vaxtilə bu pianoda həm Ərtoğrol Cavid, həm onun müəllimi Üzeyir Hacıbəyov, həm də Müslüm Maqomayev çalıblar.

Piano üzərində not dəftəri qoyulub.

Pianonun yuxarısındakı divar Ərtoğrol Cavidə həsr olunub. Burada onun rəsm əsərləri (Şeksprin, Betxovenin portretləri, Abbasmirzə Şərifzadənin Şeyx Sənan rolunda təsviri və qızılgül rəsmi) nümayiş etdirilir. Həmçinin qızılgül rəsminin sağ və sol tərəfində A.Kərimovanın qələmkar texnika ilə işlədiyi, Ərtoğrola, Turana həsr olunmuş əsərləri təqdim olunub. Lövhənin aşağı hissəsində isə Ərtoğrolun not yazıları yerləşdirilib. Lövhənin sol hissəsində Ərtoğrolun uşaqlıq, yeniyetmə və gənclik dövrlərini əks etdirən fotoşəkilləri cəmlənib.

24 illik qısa ömür yaşamış Ərtoğrol Cavid Pedaqoji İnstitutun ədəbiyyat fakültəsini "əla" qiymətlərlə bitirdikdən sonra Konservatoriyaya daxil olmuşdu. Eyni vaxtda o, Bülbülün təşkil etdiyi Xalq Musiqisinin Tədqiqi kabinəsində çalışır, araşdırmalar aparırdı.

Üzeyir Hacıbəyovun tələbəsi olan Ərtoğrol Cavid soyadına görə çap olunmaq imkanından məhrum idi. Bununla belə usanmadan işləyirdi. Romanslar, mahnılar, simfonik parçalar bəstələmiş, "Məhsəti" operasını yazmağa başlamışdı.

Qərbi Avropa və rus bəstəkarlarının bir çoxlarının məşhur əsərlərini Azərbaycan dilinə ekvoritmik tərcümə etmişdi.

Çoxlu şeirlərin, ssenarilərin müəllifi idi.

1943-cü ildə həyatı amansızca erkən bitən bu istedadlı gənci onunla Konservatoriyada birgə təhsil almış məşhur bəstəkar Fikrət Əmirov çox sonralar belə qiymətləndirirdi: "Ərtoğrol musiqidə əyalətçiliyi sevməzdi, geniş miqyaslarda düşünə bilirdi, xalq musiqimizə bu qədər yaxın, bələd və aşina olmaqla bərabər hər cür milli məhdudiyyətdən xali idi.

Mən onun sənətini də, şəxsiyyətini də açılmamış gözəl bir fidana, pöhrəyə bənzədə bilərəm. Qəti əminəm, qalsaydı, musiqimizin ən görkəmli xadimlərindən biri olacaqdı".

***Aparıcı mətn:***

Ərtoğrol atasına layiq bir oğul idi. 24 illik son dərəcə qısa bir ömür yaşamış, bu ömrün də son ilini çarpayı dustağı olmuş Ərtoğrol bütün maddi və mənəvi sıxıntılara baxmayaraq ruhdan düşməmiş, böyük bir kollektivin yerinə yetirə biləcəyi qədər zəngin, çoxcəhətli və faydalı işlər görmüşdür.

O, Nizami Gəncəvinin sözlərinə romanslar yazan ilk Azərbaycan bəstəkarlarından idi.

Nigar Rəfibəylinin "Məhsəti" poeması əsasında opera yazmağa başlayıbmış və atasının "Şeyx Sənan" faciəsini də operalaşdırmağa ciddi hazırlaşmış.

Bir çox xalq mahnılarımızın nadir ifalarda fonovaliklərə yazılaraq bugünə çatdırılması Ərtoğrolun mədəniyyətimizə misilsiz xidmətlərindəndir.

Onun şeirləri, ssenariləri, elmi – tədqiqi məqalələri bişkin bir qələm sahibi olduğunu təsdiqləyir.

1942-ci ildə Konservatoriya tələbəsi olmasına baxmayaraq onu əsgər aparırlar, ağır tunel tikintilərində işlədirlər, vərəm xəstəliyinə tutulsa da, yalnız xəstəliyinin ən böhranlı nöqtəyə çatmasından sonra onu azad edirlər. Bakıya deyil, Naxçıvana getməsinə icazə verirlər. 1937-ci il repressiyalarının zərbə dalğasının qurbanı olan Ərtoğrolla vidalaşmağa getməyi də anası və bacısına icazə vermirlər.

Bu istedadlı musiqiçinin əsərləri vəfatından yarım əsr sonra ifa edilmiş, lentə alınmış və Azərbaycan radiosunun "qızıl fond"una daxil edilmişdir.

Pianonun qoyulduğu divara bitişik divarda Ərtoğrol Cavidə həsr olunmuş əllə toxunmuş süjetli xalça asılıb.

Xalçanın alt hissəsində vitrin qoyulub. Vitrində Turan Cavidə məxsus sənədlər və əşyalar nümayiş olunur.

Sol divarda Ə.Cavidə məxsus sekreter qoyulub. Burada vallar, musiqi ilə, şahmatla bağlı kitablar, lüğətlər, Ərtoğrolun əlyazmaları, dama taxtası, şahmat taxtası və s. yerləşir.

Ərtoğrol yaxşı şahmatçı idi. Onun uşaqlıq dostu Ətaulla Qasımovla oynadığı şahmat partiyalarının müfəssəl əks etdirən dəftərlər də qalıb.

Sekreterin üzərində Ərtoğrola məxsus sənədlər və əşyalar (diplom, zaçot kitabçası, vəsiqə, fırçalar və rəsm boyaları) nümayiş etdirilir.

Sekreterin yuxarı hissəsindəki guşədə H.Cavidin müxtəlif illərdə keçirilmiş yubiley tədbirlərinin dəvətnamələri və fotoşəkilləri nümayiş olunur. Bu guşənin ətrafındakı çərçivələrdə Cavid və sənəti haqqında məşhur şəxsiyyətlərin fikirləri yazılıb:

"Cavidin yaradıcılığı dil və üslub haralardan alınırsa alınsın, nə kibi ilhamlardan doğur doğsun, Azərbaycandakı şair və ədiblərimiz içində ən müstəsna, ən zərif və nadir bir dildir"

***Hənəfi Zeynallı.***

"Xoşa gəlmək" üçün yazmadığı üçündür ki, Cavidin əsərləri, həmişə, hər yerdə xoşa gəlmişdir.

***Qulam Məmmədli.***

"Cavidin dramları xarakterlər, ehtiraslar dramıdır."

***Məmmədcəfər Cəfərov.***

"Onun misraları gözə də, qulağa da, ruha da, ağıla da qida verirlər"

***Mehdi Məmmədov.***

"Hüseyn Cavid Azərbaycan teatrının Şekspiridir".

***Mikayıl Müşfiq.***

"Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz"

***Cəfər Cəfərov.***

** **

Bu guşənin aşağı hissəsində 10 iyun 1995-ci il Prezident Heydər Əliyev Cavid məqbərəsinin layihəsi ilə bağlı toplantı aparàrkən çəkilmiş foto nümayiş olunur. Sekreterdən sonrakı divarda yerləşən vitrində isə Cavidlərə məxsus məişət əşyaları yerləşdirilib.

Sekreterin qoyulduğu hissə ilə üzbəüz boş divarda eni 123 sm. Hündürlüyü 83 sm. olan yağlı boya ilə çəkilmiş triptix asılıb. (müəllif O.Sadıqzadə. 1997)

"Cavid dünyası" adlanan bu triptix aşağıdakı məzmundadır:

Triptixin orta hissəsində qəhrəmanı Şeyx Sənan kimi ilahi aləmə qovuşan, buludlara çəkilən Cavidin surəti təsvir olunub.

Triptixin sağ və sol hissəsində Cavid qəhrəmanları fırçaya alınıblar. Bu qəhrəmanlar qalereyası Cavidin ədəbi dünyasının miqyaslarını bir neçə cəhətdən əks etdirilmişdir. Belə ki, bu triptixdə Cavid obrazlarının geniş coğrafiyası, bu surətlərin ən müxtəlif millətləri təmsil etməsi, həmin şəxsiyyətlərin ümumdünya və ümumbəşəri tarixi kontekstdəki mühümlüyü öz əksini tapmışdır.

Sol qanadda – "Peyğəmbər", "Topal Teymur", " Maral", "Ana", "Şeyda".

Sağ qanadda – "İblis", "Şeyx Sənan", "Uçurum", "Səyavuş", "Afət", "Xəyyam" pyeslərindən qəhrəmanlar əks olunub.

Nur haləsinə bürünmüş bu insan Peyğəmbərdir. Şəxsiyyətcə dahi, milliyyətcə ərəb-ərəb aləmi.

Orta çağ Şərq ədəbiyyatında Turan – türk dünyasının rəmzi sayılan Səyavuş. Cavidin demokratik ruhlu gəncliyin təmsilçisi kimi təsvir etdiyi şahzadə. Bu qəhrəmanın milli və coğrafi ünvanı - türk elləri.

XII yüzilin böyük şairi, rübai ustadı, astronomu, riyaziyyatçısı, filosofu... Ömər Xəyyam Nişapuri.

Orta əsrlərin türk aləmi və ümumilikdə o dövr dünyasının böyük sərkərdəsi Teymurləng.

Şeyx Sənanı gözəlliyi ilə ovsunlamış gürcü qızı Xumar.

Xəyyamın sevgilisi Sevda, dağıstanlı Səlma, osmanlı qızı Afət... bu kimi qəhrəmanlar göz önündə canlanıb.

Tablonun aşağı hissəsində H.Cavidin "Dün və bu gün", "İştə bir divanədən bir xatirə", "Ey ruhi- pürsükun!" şerlərindən misralar yazılmışdır:

"Hər qaranlıqda çırpınır bir nur
Hər həqiqətdə bir xəyal uyuyur"
"Hər kəsin ruhində bir xaliq gülər
Öylə bir xaliq ki, xəlq etmiş bəşər."
"Hər levhə bir həqiqət söylər təranədir.
Hər kölgə, hissi oqşayacaq bir bəhanədir."

Triptixdin aşağısında Seyfəddin və Firuddin Məmmədvəliyevlərin qoz ağacından oyma üsulu ilə yaratdıqları suvenir nümayiş etdirilir. Üzərində ərəb əlifbası ilə H.Cavidin adı və əsərlərindən götürülmüş aforizmlər yazılmışdır.

Mərkəzi pəncərənin sağ və sol tərəfində iki əsəri asılıb.

Sağ tərəfdə asılan "Son yay" əsərini rəssam Altay Hacıyev, sol tərəfdə asılan "İblis" operasının yaranması" əsərini rəssam Ənvər Əliyevin çəkmişdir.

Əsərlərin məzmunu ilə bağlı zəruri bilgi: “Son yay” əsərində 1936-cı ilin yayında Pirşağıdakı bağlardan birində yay istirahətini keçirən Cavid və yaxınları təsvir edilib. Növbəti yayda daha onlar bir yerdə ola bilməyəcəklər. Başlanan repressiyalar onların hamısını pərən-pərən salacaq.

Rəsmdə Abşeronun füsunkar yay axşamlarından biri təsvir edilir. Cavid yeni yazdığı şeiri oxuyur. Müşfiq, Əhməd Cavad, hələ xeyli gənc olan Rəsul Rza, Ənvər Məmmədxanlı dinləyirlər. Ənvərin bacıları Arifə ilə Həbibənin siluetləri də bu yay axşamının alatoranında sezilməkdədir.

**Aparıcı mətn:**

Onların birgə olduqları hər an sənət havasıyla çağlardı.

1936-cı ilin yayında hamısı Pirşağıda bir-birinə yaxın yerdə bağ kirələmişdilər ki, hər axşam bir yerdə ola bilsinlər. Növbəti yayda daha onlar bir yerdə ola bilməyəcəklər. Başlanan repressiyalar onların kimini məhv edəcək, kimini qara caynağına alıb uzaq Sibirə atacaq.

Hələliksə xoşbəxtdirlər – çünki birgədirlər. Onları ayrılığın son yayı qovuşdurur. Hər gün bir yeni ilhamın, hər gün bir yeni şeirin doğulduğu çağlardır. Cavid əfəndi təzə şeirini oxuyur. Əhməd Cavad, Müşfiq, Rəsul Rza, Ənvər Məmmədxanlı heyranlıqla dinləyirlər. Ənvərin bacıları Arifəylə Həbibə hələ uşaqdırlar.

Bu anlar onlarçün bir nağıla bənzəyir...

Sağ tərəfdəki rəsmdə piano arxasında oturub yazmağa başladığı “İblis” operasından fraqmenti çalan Müslüm Maqomayevin yanında Pənah Qasımov ayaq üstədir. O, sanki özünü unudaraq pianoya dirsəklənib, valeh-valeh dinləyir. Üzeyir bəy qoltuqda əyləşib. Cavidlə Hənəfi Terequlov elə bu rəsmin asıldığı otağın əks edildiyi məkanda, elə indi də bu otaqda olan stolun arxasında əyləşiblər. Qarşıdakı çay stəkanları içilməmiş qalıb. Pəncərədə əyləşən gənc isə Ərtoğroldur.

**Aparıcı mətni:**

Görkəmli maarifçi Pənah Qasımov qoşa qızı və bir oğlu, xanımı Əminə ilə 1930-cu ilə qədər Cavid ailəsi ilə bu mərtəbədə birgə yaşadılar. Əlbətdə ki, bir evli kimi idilər.

Pənah bəy darülmüəllimin müdiri, Cavid oranın müəllimi idi.

Pənah bəy, Müslüm Maqomayev və Üzeyir Hacıbəyov bacanaq idilər. Digər Terequlova bacıları – Müslümün yoldaşı Badigülcamalla Üzeyir bəyin zövcəsi Məlikə xanım ərləri ilə birgə bu evə tez-tez gəlirdilər.

Üzeyiri, Müslümü, Cavidi, Pənah bəyi yalnız qohumluq, dostluq münasibətləri deyil, həmdə yaradıcılıq əməkdaşlıqları qovuşdururdu.

Üzeyir bəy Cavidin librettosu əsasında “Şeyx Sənan” operası yazacağını bildirmişdi.

Müslüm bəyin Cavidin librettosu əsasında “İblis” yazmağa başlaması və onun bəzi fraqmentlərinin səsləndirilməsi barədə o vaxtın mətbuatında soraqlar var.

H.Cavidin müxtəlif illərdə həmkarlarına göndərdiyi məktublardan fraqmentlər nümayiş olunur:

Fəzilətli Əfəndim Məşədi Qurbanəli Ağa Həzrətlərinə!

© AMEA Hüseyn Cavidin Ev Muzeyi- www.huseyncavid.com

... İstanbula yetişən kibi "Ziya Əfəndi ki, Almaniyanın göz doktorluğunun məktəbini ən birinci imtiyaz ilə bitirmiş diplomatlarımızdandır", yanına gəlib gözümü göstərdim. Bir dəva və ilac verib, sonra bir gözlük nömrəsi yazdı ki, arayıb İstanbulda bulamadım. Parisə yollayıb 14 gündən sonra aldım. Əgərçi bu xüsusda üç lirə məsrəf qoydum, amma şükür, gecə - gündüz təhsili – elmə eyicə davam edə biliyorum...

Hüseyn Rasizadə Naxçıvanlı

Oktyabr 1906. İstanbul.

SEVGİLİ QARDAŞIM ŞAİQ!

... TƏLİFATINIZDAN "UŞAQ GÖZLÜYÜ" QAFQASYADA BİRİNCİLİYİ QAZANACAQ NÜMUNƏLƏRDƏNDİR. LAKİN "UŞAQ GÖZLÜYÜ"NDƏ BİR ÇOX ÇAP XƏTALARI VAR Kİ, COCUQLARIN FİKRİNİ ŞAŞIRTA BİLİR.

QARDAŞIN HÜSEYN CAVİD

TİFLİS, 18 OKTYABR, 1910.

ƏZİZ!

... DÜNYADA BİR ÇOX ƏZİZLƏRƏ TƏSADÜF ETMƏK MÜMKÜN OLSAYDI, BƏLKƏ TEZ UNUDULURDUN. FƏQƏT ƏFSUS Kİ. TƏSADÜF EDİLMİYOR...

... BİR AY VAR Kİ, MƏNSUR OLARAQ "ŞEYDA" ADLI BİR FACİƏ, SADƏ BİR ŞEY YAZMAĞA BAŞLADIM. SƏMİMİYYƏTLƏ ÖPƏR, ƏLLƏRİNİ SIXAR, ALLAHA İSMARLARIM.

QARDAŞIN HÜSEYN CAVİD

30 MAY 1916. BAKI.

PƏK MÖHTƏRƏM İDRİS!

FƏRAMUŞ XANIMLA BƏRABƏR YAZDIĞINIZ LÜTFNAMƏYİ ALDIM, ADRESİNİZİ ÖĞRENDİM. TƏBİİ, BAKIYA GƏLİR – GƏLMƏZ BİR – İKİ GÜN SİZƏ MÜSAFİR OLURUM. ... İki gün əvvəl Mişkinazdan məktub aldım. Dağda-yaylaqda imişlər, sonra İstisuya getmişlər... çocuqlar səlamətdirlər.

Hüseyn Cavid 15 avqust, 1925.

**Aparıcı mətn:**

1906-cı il aprel ayının 19-da Hüseyn Rasizadə müəllimi Qurbanəli Şərifovun təşviqi ilə Türkiyəyə təhsil almağa gedir.

Həmin il mayın 2-də çıxan "İrşad" qəzeti Naxçıvanlı bir gəncin oxumaq üçün İstanbula gəldiyini xəbər verirdi.

İstanbul Universitetində təhsil alan gəncəli tələbə Abdulla Sur Hüseyni məşhur filosof Rza Tofiqə təqdim edir. Hüseyn İstanbul Universitetinin ədəbiyyat fakultəsində təhsil almaqla yanaşı Rza bəydən də fərdi dərslər alır.

Türkiyədə olduğu müddətdə bir çox görkəmli elm və ədəbiyyat adamları ilə dostluq əlaqələri yaranır, İranın sonralar çox məşhurlaşacaq və Məşrutə hərəkatının

qabaqcıl simalarından olacaq ədəbiyyatşünas alim Məhəmmədəli Tərbiyət, inqilabçı şair Səid Səlması, dövlət xadimi Seyid Həsən Tağızadə kimi şəxsiyyətləri ilə tanış olur.

Türkiyədə təhsil aldığı illər Cavidin sonrakı bütün ömrü yolunda və taleyində silinməz izlər buraxır.

Otağa giriş zamanı sağ divarda pəncərənin yanındakı guşədə mərkəzdə rəsam Altay Hacıyevin çəkdiyi "Düşüncələr" adlı H.Cavidin portreti nümayiş olunur. Portretin ətrafında isə H.Cavidin sənət dostları ilə istirahətdə olarkən çəkdirdiyi fotolar asılıb:

1. Azərbaycan yazıçılar 1929-cu ilin iyununda Tiflisdə, "Zarya Vostoka" qəzetinin redaksiyasında çəkdirdikləri foto. Azərbaycan parnası: Cavid qələm dostları Mirzə Cəlil, Əbdürrəhim Bəy Haqverdiyev, Cabbar Əfəndizadə, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Xəlil İbrahim, Seyid Hüseyn, Mikayıl Müşfiq, Əhməd Cavad, Abdulla Şaiq, Hacıkərim Sanılı, Süleyman Rüstəm, İbrahim Əminbəyli, Məmməd Rahimlə birgə.
2. H.Cavid İstanbulda 1907 Rıza Tofiq, Abdulla Sur, Bəkir Çobanzadə ilə birlikdə.
3. H.Cavid yazıçılar arasında.
4. Mayakovski Azərbaycan yazıçıları ilə birlikdə. H.Cavid, S.Rüstəm və başqaları. 1927.
5. Cavid opera teatrının kollektivi ilə. 1930.
6. H.Cavid Kislovodskidə. Krasnıy Kamen. 1925.
7. Darülmüəllimin və Darülmüəllimatın 1926-1976-cı illər 50 illik yubileyi münasibəti ilə foto.
8. H.Cavid, A.Şaiq və bir nəfər şəxs.
9. 1926-cı il Bakıda çağırılmış Türkoloji qurultay.
10. H.Cavid, Vişnevski, Qantəmir. 1934.
11. H.Cavid, C.Cabbarlı və başqaları
12. Cavidin dərs dediyi Azərbaycan dövlət pedaqoji texnikumunun 1927-ci ildəki ilk buraxılışı münasibəti ilə düzəldilmiş xatirə nişanı.

Və s...

**Aparıcı mətn:**

Cavidin fəlsəfi poeziyası, dərin məzmunlu, ümumbəşəri mahiyyəti faciələri 1920-30-cu illər gəncliyinin düşüncəsinə hakim kəsilir, bir-birinin ardınca səhnəyə gələn Cavid faciələri bir tərəfdən dəyərli aktyor nəslinin yetişməsinə, inkişafına meydan açırsa. Digər tərəfdən zövqlü teatral auditoriyanın yaranmasına başlıca təməllərdən birinə çevrilir.

Müəllimlər, məsləkdaşlar, silahdaşlar, həmfikirlər, dostlar, qohumlar, tanışlar, tələbələr... Cavidin yaşadığı insanlı dünya, onun güc aldığı və öz işığında pay verdiyi simsarlar. Cavidin onlarla birgə və onların Cavidlə həmdəm olduqları, unudulmaz, munis anlar...

**Aparıcı mətn:**

Cavidi dostlarıyla yalnız ədəbiyyat, sənət söhbətləri qovuşdurmurdu ki! Nərd oynamağı sevərdi və uduzmağı heç xoşlamazdı. Hardan biləydi ki, qismətində

ömrü aparacaq Sibir də var. Bu nərdtaxtaya, bu daşlara, bu zərlərə Cavid həyatının qayğısız anları sığıb...

Cavid ev muzeyinə Cahangir Cahangirovun "Xəyyam" pyesinə yazdığı musiqi ilə başlanan səfər elə həmin əsərdən daha bir musiqi parçası ilə sona yetir.

***S O N***